DOI: 10.36719/AEM/2007-2019/48/15-18
Məfkurə Salam qızı Hüseynova
Azərbaycan Tibb Universiteti

NİTQİN ƏSAS KEYFİYYƏTLƏRİ VƏ ONLARIN DİLDƏ İFADƏSİ

Açar sözlər: *Azərbaycan dili, nitq, nitqin əsas keyfiyyətləri, norma, üslub*
Key words: *Azerbaijani language, speech, main qualities of speech, norm, style*
Ключевые слова: *азербайджанский язык, речь, основные качества речи, норма, стиль*

Müasir Azərbaycan dili əsrlərlə inkişaf yolu keçib bu günümüzə kimi qorunub saxlanan bir sərvətdir. Müstəqil ölkənin vətəndaşı olaraq bizim qarşımızda duran vəzifələrdən biri də məhz bu sərvətə sahib çıxmaqdır. Sahib çıxmaq ifadəsi abstrakt bir ifadə deyil. O özündə ilk növbədə dilimizin saflığının qorunmasını ehtiva edir. Cənab Prezidentin «Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanından irəli gələn məsələlər birbaşa dilimizin saflığının qorunması və inkişafına yönələn məsələlərdir. Sadalanan məsələlər ilk növbədə dilimizin ayrı-ayrı sahələri üzrə elmi tədqiqləri bir daha aktuallaşdırır.

Nitq dilin fəaliyyət forması olduğuna görə dilin saflığı ilk növbədə nitqin saflığına bağlıdır. Digər tərəfdən dil nitqin zənginliyini təmin edir. Nitq isə öz növbəsində dili daima zənginləşdirir, onun ifadəlilik imkanlarını artırır, genişləndirir. Bu cür vəhdətdən isə dil mədəniyyəti yaranır. "Ən çətin iş nitqin nə olduğunu müəyyənləşdirməkdir. Hər şeydən əvvəl, bu nə dil, nə də nitq aktıdır... Nitq müxtəlif ünsiyyət şəraitində dilin başqa-başqa formalarda tətbiqidir" (1, s.37).

Nitq düzgün, dəqiq, məntiqli, aydın, rəngarəng, münasib və məqsədli olmalıdır. Həmin keyfiyyətlərin əmələ gəlməsində dilin bütün səviyyələri (fonetik, qrammatik, intonasiya) yaxından iştirak edir. Lakin, təbii ki, bu və ya digər keyfiyyətin meydana çıxmasında dilin müxtəlif səviyyələrinin üzərinə fərqli yük düşür. "Nitqin xarakterindən asılı olaraq şərait və məqsədlə əlaqadar dil vasitələri seçilib istifadə olunur. Nitq prosesindən işlədilən dil vahidləri əlavə məna və ya məna çaları kəsb edə bilir" (2, 50).

Nitqin əsas keyfiyyətlərindən biri *düzgünlük* prinsipidir. Hətta demək olar ki, digər keyfiyyətlər bu keyfiyyətdən asılı olur. Çünki nitq düzgün olmasa, ünsiyyətin yaranması, ünsiyyət prosesinin baş tutması mümkünsüz olar. Düzgünlük keyfiyyəti öz növbəsində ədəbi tələffüz və qrammatik normalar əsasında qurulur. Bildiyimiz kimi bu normalar şivə ünsürlərinin ədəbi dilə keçməsinə imkan vermir.

"Düzgün nitqə yiyələnmək üçün təkcə qrammatik qaydalara riayət etmək azdır, ədəbi dilin digər normaları da nəzərdə saxlanılmalıdır. İlk növbədə cümlələr məntiqi cəhətdən düzgün qurulmalı, dilin fonetik, leksik və qrammatik normaları pozulmamalıdır. Hadisələr, faktlar, onların səbəb-nəticə əlaqələri bilərəkdən təhrif olunmuş şəkildə dilə gətirilməməli, reallıqdan uzaqlaşma hallarına, yalan məlumatlara, layiq olmayan tərifərə, nöqsanların ört-basdır edilməsinə yol verilməməlidir" (4, 104).

Düzgünlük prinsipinə ən yaxın olan keyfiyyət isə *dəqiqlik* keyfiyyətidir. Nitq mədəniyyəti üçün onun rolu böyükdür. Antik dövrdə bu keyfiyyət xüsusi olaraq yüksək qiymətləndirilib. Antik dövrün alimləri düşünürdülər ki, nitq dəqiq olmasa, məqsədinə çatmaz. Məhz ilk dəfə o dövrün alimləri nitqin dəqiqliyini fikrin dəqiqliyi, ardıcıllığı ilə bağlamışlar. Bu keyfiyyət sözlərin və ifadələrin mənalarının adlandırdıqları əşya və hadisələrə tam uyğun olmasını nəzərdə tutur. Bu mənada sinonimlərin daha geniş istifadəsi gərəkdir. Bu proses olduqca çətin və əziyyətlidir. Çünki nitqdə hər sinonimik leksik vahidin üslubi rənginə və çalarına görə istifadə məqamı, yeri var.

"Sinonim cərgədən sözün üslubi məqama müvafiq və yerli-yerində istifadə nitqin dəqiqlik keyfiyyətini təmin edən ən vacib şərtdir" (Əfəndiyeva).

Bəzi mənbələr (3) nitqin *təmizliyi* prinsipini də ortaya qoyur. Müəlliflər nitqin təmizliyini pozan bir neçə əsas səbəb göstərir:

1.Nitqdə dəyərli dialekt və şivəyə məxsus dil vahidlərinə yer verilməsi;

2.Alınma sözlərin zərurət olmadan işlədilməsi;

3. Zərurət olmadan terminlərin işlədilməsi;

4."tüfeyli sözlərin" istifadəsi;

Nitqin *məntiqilik* kimi keyfiyyəti də böyük əhəmiyyət daşıyır. Bəllidir ki, dəqiq olmayan nitq məntiqli ola bilməz. Ona görə də, məntiqlilik keyfiyyəti dəqiqlik keyfiyyəti ilə sıx şəkildə bağlıdır.

Məntiqilik keyfiyyəti dilin həm leksik, həm sintaktik sistemi əsasında əmələ gəlir. Onun yaranması sözlərin həm tam şəkildə həqiqi mənalarına uyğun işlənməsini, həm ardıcıl şəkildə birləşməsini tələb edir.

Məntiqilik cümlədə, mətndə söz sırasının pozulmasını, köməkçi nitq hissələri və ara sözlərin yerli-yerində işlənməsini, sözlər, birləşmələr və cümlələr arasında fikir əlaqəsini, mətnin abzaslara parçalanmasını, əsərin kompozisiyasının mükəmməl quruluşunu tələb edir. Bu keyfiyyət elmi üslub üçün daha vacib və zəruridir. Təbii ki, başqa üslublara da bu keyfiyyət məxsusdur. Çünki üslubdan, mətnin məzmunundan asılı olmayaraq məntiqsiz fikir qəbul olunmazdır. Lakin, məsələn bədii üslub da son dərəcə səciyyəvi bir xarakter daşıyır. Belə ki, bir qədər şərti xarakterə malik bədii nitqdə məntiqilik əsərin məzmunu, ideya istiqaməti, sözlərin həqiqi mənaları ilə yanaşı məcazi mənalarda da işlənməsi və s. bu kimi məqamlarla əlaqədardır. Elmi üslubsa açıq məntiq və əsasən də təkmənalı leksik vahidlər – terminlər üzərində qurulur.

Digər vacib keyfiyyətlərdən biri də *aydınlıq* keyfiyyəti də nitqin əsas amillərindən biri sayılır. Bu keyfiyyət üçün ən vacib şərt ədəbi dildə şivə ünsürlərinin, əcnəbi sözlərin, arqo və jarqon ifadələrinin leksik vahidlərin işlənməsini qadağan etməkdir, onlara yol verməməkdir. Təbii ki, şivələrin və əcnəbi dillərin ədəbi dilimizin təşəkkülü və tərəqqisində böyük rolu vardı. Bu cür leksik vahidlərə əsasən bədii üslubda rast gəlmək olur. Xüsusi ilə personajların nitqinin fərdiləşdirilməsi, yerli ya milli koloritin və s. yaradılması məqsədi ilə.

Nitq mədəniyyətinin əsas əlamətlərindən biri də nitqin *ifadəliliyidir*. Bu keyfiyyət nitqin təsiredici qüvvəyə malik olmaq zərurətindən doğur. Çünki əksər halda nitq prosesi, ünsiyyət təsir etmək məqsədi daşıyır. Və bu mənada ifadəli nitq daha təsirli və əhəmiyyətli olur.

İfadəlilik əmələgəlmə yollarının müxtəlifliyi, həm də ifadəetmə xarakterinin mürəkkəbliyi səbəbindən çox geniş bir anlayışdır. İfadəliliyin əmələ gəlməsində dilin bütün yarusları iştirak edir: həm fonetika, həm leksika, həm semantika, həm qrammatika, həm üslubiyyat, həm də intonasiya. Bir sıra tədqiqatçılar buraya nitqin quruluşunu, ardıcıllığını, onun dinamikasının yaranmasında yaxından iştirak edən abzas, fəsil, kompozisiya kimi anlayışları da daxil edirlər. Əlbəttə, ifadəlilik əsasən leksika və semantika ilə bağlıdır. Bu məqam əsasən dilin məcazlar sistemini, omonim, antonim və emosional-ekspressiv dil vahidlərini əhatə edir. Lakin leksika ilə yanaşı bu keyfiyyətin əmələ gəlməsində sintaksisin də rolu az deyil, xüsusilə də sintaktik təkrarlar və ritorik sualların. Məsələn,

İnsan gah daş olur, gah da su olur,
Gah *sevinir,* gah da *peşiman* olur.
Bir anın içində gah *sakit quzu,*
Gah da *çalxalanan bir ümman olur.*
(B.Vahabzadə, İztirabın sonu).

Göründüyü kimi, bu mətnlərin birincisində ifadəlilik omonimlər, ikincisində isə antonimlər sayəsində yaranmışdır.

Baxıram, baxıram, gözlərim doymur.
Heyrətə salır məni
Payızın zərgər işi.
Qızıla bax! *Zümrüdə* bax! *Yaquta* bax!
Sallanıb gilə-gilə,
Düzülübdür budaq-budaq.
(R.Rza, Yarpaqlar tökülməsin).

Bu bədii parçada isə ifadəliliyin ortaya çıxmasına məcazlar səbəbdir.
Başqa bir misra:

İstərsən, yuxuna *gələrəm* sənin,
Gələrəm dəniz kimi,
Üzünə *incilər çilərəm* sənin,
Çilərəm dəniz kimi.
Yoluna *şəfəqlər səpərəm* sənin
Səpərəm dəniz kimi.
İstəsən üzündən *öpərəm* hərdən,
Öpərəm dəniz kimi.
Adını *qəlbimin sahillərinə*
Yazaram *dəniz* kimi.
"Sevirəm" söyləsən bir axşam mənə,

Susaram dəniz kimi, susaram dəniz kimi...
(Nəbi Xəzri)

Bu nümunədə poetik mətnin ifadəliliyi məcaz, müqayisə və sintaktik təkrarlar nəticəsində yaranır. Bu məqsədlə bəzən ritorik suallardan da istifadə olunur:

Bir yanda tərlanlar, dumanlı dağlar,
Bir yanda kəkliklər, ayna bulaqlar,
Bir yanda bülbül, çiçəkli bağlar,
Mən bu tamaşadan necə əl çəkim?
(M.Müşviq)

"Yenə o bağ olaydı..." şeirində isə şair ardıcıl olaraq hərəkətin felin arzu şəkli ilə və ritorik sualların işlənməsi, yəni, qrammatik vasitələrlə verir:

Yenə o bağ *olaydı,*
Yenə yığışaraq siz,
O bağa *köçəydiniz.*
Biz də muradımızca
Fələkdən kam *alaydıq,*
Sizə qonşu *olaydıq.*
Səni tez-tez *görəydim,*
Qələmə söz *verəydim,*
Hər gün bir yeni nəğmə,
Hər gün bir yeni ilham,
Yazaydım səhər, axşam.
Arzuya bax, sevgilim,
Tellərindən incəmi?
Söylə ürəyincəmi?

İfadəliliyin dildə təzahüretmə yolları da mürəkkəbdir. Həmin proses ən əvvəl dilin yazılı və şifahi formalarda çıxış etməsi ilə əlaqədardır. Düzdür, bunların hər ikisində ifadəlilik dilin bütün sistemlərinin iştirakı sayəsində mümkünləşir.

Bəllidir ki, yazılı nitqdən fərqli olaraq, şifahi nitq səslənən nitqdir. Burada ifadəliliyin əmələ gəlməsi üçün daha geniş imkanlar vardır. Belə ki, "şifahi nitqdə dil vahidləri ilə yanaşı, insanın psixoloji-fizioloji sistemi də iştirak edir. Nəfəs və diksiyadan ibarət olan səs ton, vurğu, pauza, tələffüz, temp, ritm, tembr, mimika, hərəkət kimi anlayışlarla birləşərək, nitqin texnikasını təşkil edir. Bu bölmə nitqin daxili, səslənmə tərəfinin ifadəlilik keyfiyyətinin yaranmasına xidmət edir, təlim-tərbiyə və təhsil prosesində böyük əhəmiyyət daşıyır, xüsusilə də aktyor sənətində" (3).

Nitqin digər keyfiyyəti isə *rəngarənglik* keyfiyyətidir. Bu keyfiyyət də nitq üçün böyük əhəmiyyət daşıyır. Bu mənada aparıcı rol çoxmənalılıq, yəni, məcazlar üzərinə düşür. Məsələn:

Luvra girib
Sola burulsan,
Qanadlı heykəl görəcəksən.
Mərmər bir qadın – *başsız.*
"Başsız" deyəndə
Sahibsizdir düşünməyin siz.
Nə də ki, guya başı var – *beyinsiz.*
(R.Rza, Zəfər ilahəsi).

Göründüyü kimi, müəllif öz fikrini başsız-sahibsiz-beyinsiz sinonim cərgədən istifadə edərək qurmuşdur. Bu cür üsuldan istifdə edən şair fikrinin rəngarəng bir şəkildə, xüsusilə ekspressiya ilə ifadəsinə nail olmuşdur.

Bununla belə, rəngarəng səciyyəli nitqin yaranmasında dilin digər səviyyələri də iştirak edir. Belə ki, sözlərin öz semantikasına müvafiq surətdə birləşmələri, nitqin ümumi təşkili, dinamikası və ritmikası da bu keyfiyyətin əmələ gəlməsinə səbəb olur. "Səslənən nitqdə buna intonasiya da əlavə edilir. Həmin fikrin reallığını daha qabarıq şəkildə bədii əsərlərin və xüsusilə də poetik əsərlərin dili təsdiq edir. Məşhur söz sənətkarlarının əsərləri ilə tanışlıq bu cəhətdən heyrət doğurur". Onların yaradıcılığında müxtəlif quruluşlu,

rəngarəng dinamikaya, ritmikaya malik olan nitq növləri ilə rastlaşırıq. Və bura leksik-semantik zənginlik də daxil olduqda əsər qeyri-adi bir estetik təsir bağışlayır" (3).

Nitqin aparıcı keyfiyyətlərindən danışanda *münasiblik* keyfiyyətinin də dəyərini qeyd etmək lazımdır. Bu keyfiyyətin nitq üçün zəruriliyini hələ qədim yunan və Roma alimləri xüsusi olaraq qeyd etmişlər. Onlar belə hesab edirdi ki, nitq ancaq münasib olduqda, ünsiyyət yarana bilər. Xüsusli ilə onlar bu cəhəti siyasi nitqə aid edirdilər. Bu mənada nitq elə qurulmalıdır ki, ünsiyyətin məqsəd və vəzifələrinə uyğun olsun, yəni mövzuya, onun məntiqi və emosional məzmununa, dinləyici ya oxucuların səviyyəsinə, yəni auditoriyaya, yazılı və şifahi nitqin tərbiyəedici və estetik məqsədlərinə xidmət etsin.

Qeyd olunan bütün bu keyfiyyətlər nitqə aid edilən tələblərdir ki, bunlara əməl olunmazsa, nitq mədəniyyətinə yiyələnmək də olmaz. Nitq mədəniyyəti isə ümumi milli mədəniyyətin aparıcı tərkib hissəsidir. "Mədəniyyət gözəlliklə, gözəllik də mədəniyyətlə bağlıdır. Bunları istiqamətləndirən isə dil və nitqdir" (3, 48). Dil mədəniyyəti istəqamətləndirən vacib amildir. Ona görə dilin saflığının, bütün qrammatik normalarının qorunması, leksik bazasının zənginləşdirilməsi mühüm məsələlərdir. Dil bir tətəfdən qüvvüdirsə, digər tərəfdən o ümumi mədəniyyətin ən incə hadisəsidir.

Ədəbiyyat:

1. A.A.Реформатский. Введение в языкознание. M., Просвещение, 1987
2. A.Qurbanov. Ümumi dilçilik (II cild). Bakı, Elm, 2011.
3. T.Əfəndiyeva. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, Elm, 1980, s. 112
4. Süleyman Səfər oğlu Hüseynov, Elvira Muxtar qızı Qaracayeva. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, "Elm və təhsil", 2016

The main qualities of speech and their manifestation in the language

Summary

Language and speech are interconnected concepts. Language forms speech; speech, in turn, affects the language. Against the background of the interaction of language and speech, a culture of communication is formed. Speech should facilitate proper communication, maintaining voice contact. To do this, speech must have some important principles and qualities. Among them, one can single out accuracy, consistency, correspondence, expressiveness, etc. These qualities have important functional significance. Therefore, they have always been the subject of study by scientists. Today, for Azerbaijani linguistics, the issue of language and speech remains relevant from the point of view of the formation and development of a national culture of communication.

Основные качества речи и их проявление в языке

Резюме

Язык и речь – это взаимосвязанные понятия. Язык формирует речь, речь в свою очередь оказывает воздействие на язык. На фоне взаимодействия языка и речи формируется культура общения. Речь должна способствовать правильному общению, поддержанию речевого контакта. Для этого речь должна обладать некоторыми важными принципами и качествами. Среди них можно выделить точность, логичность, соответствие, выразительность и т.д. Эти качества обладают важной функциональной значимостью. Поэтому они всегда являлись предметом изучения ученых. Сегодня для азербайджанского языкознания вопрос языка и речи остается актуальным с точки зрения формирования и развития национальной культуры общения.

Rəyçi: dos. Z.B.Məmmədova